# BİOLOJİ MÜXTƏLİFLİYİN QORUNMASINDA BAYTARLIQ ELMİNİN ROLU

**Sevinc Məmmədova**

*AR KTN Baytarlıq Elmi-Tədqiqat İnstitutu, Bakı*
*memmedovasevinc@ro.ru*

Bioloji müxtəliflik ətraf mühitin vəziyyətini və ekosistemin dayanlıqlılığını qiymətləndirən ən obyektiv amillərdən biri və planetimizdəki bütün həyat formalarının birliyidir. Biomüxtəliflik həyatın varlığı üçün zəruridir. Buraya heyvanlar və quşlar aləmi də daxildir. Heyvanlar və quşlardan insanların yaşaması üçün lazım olan həm qida, həm də xammal alınır. Odur ki, heyvanların və quşların sağlam yetişdirilməsi, onların xəstəliklərdən qorunması, onların sayının artırılması mütləqdir. Bu strateji hədəflər ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsində mühüm rol oynayır. Kənd təsərrüfatı məhsullarının istehsalı prosesində dəyər zəncirinin qorunması, istehsal vasitələrinin sadələşdirilməsi, bu sahədə elmin innovativ metodlarla inkişaf etdirilməsi günün vacib məsələlərindəndir. Bioloji müxtəlifliyin qorunması elmi baxımdan da böyük əhəmiyyət kəsb edir və onun qorunması üzrə elmi tədqiqatların aparılması aktualdır. Bioloji müxtəliflik canlıların həyatiliyinin təmin olunmasında mühüm hesab edilir. Bioloji müxtəlifliyin saxlanması mütləqdir və onun dayanıqlı istifadəsi insanların ərzaq, dərman vasitələrinə olan tələbatının təmin edilməsi üçün əsasdır.

Heyvanların və quşların sağlamlığının qorunmasında, onların məhsullarının və xammalın istehsalında, bu məhsulların saxlanmasında baytarlıq nəzarəti mütləqdir. Heyvan mənşəli məhsulların və xammalın tədarük edilməsinə, bu məhsulların satışına baytarlıq ekspertizasından keçdikdən sonra icazə verilir ki, bu da əhalinin sağlamlığı üçün vacibdir.

Yer üzündə mövcud olan bütün canlı orqanizmlərin, o cümlədən adi gözlə görünməyən mikroorqanizmlərin növ müxtəlifliyi, biomüxtəlifliyin monitorinqi və onun vəziyyətinin proqnozlaşdırılmasının müqayisəvi üsulları biomüxtəlifliyin tədqiqatları zamanı təhlil edilir. Məhsulların keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi, məhsulların istehsalı, saxlanması və satış zənciri prinsipi qida təhlükəsizliyinin tələblərinə əsasən aparılmalıdır. Heyvan mənşəli məhsulların və xammalın istehsalı, saxlanması, satışı obyektlərində baytarlıq nəzarətinin həyata keçirilməsi, həmçinin heyvanların, quşların və onların məhsullarının baytarlıq normativlərinin tələblərinə uyğun olması müəyyən edilməlidir.

Baytarlıq sahəsində aparılan elmi tədqiqatların əsas istiqamətləri – elmi tədqiqatlar nəticəsində hazırlanmış və təkmilləşdirilmiş baytarlıq preparatları heyvan və quş xəstəliklərinin müalicə və profilaktikasında tətbiq edilir. Müxtəlif vaksinlər hazırlanan zaman alınan mikroorqanizm və parazitar xəstəliktörədicilərinin ştamlarını baytar həkimləri heyvandarlıq və quşçuluq təsərrüfatlarında tətbiq edirlər. Baytarlıq sahəsində aparılan elmi tədqiqatların nəticələri və nailiyyətlərinin təsərrüfatlara tətbiqi məqsədilə tədbirlər həyata keçirilir. Hər hansı bir mikroorqanizm və parazitar xəstəliktörədiciləri ştamlarının tətbiqi zamanı təhlükəsizlik qaydalarına riayət edilməlidir.

Qeyd etmək lazımdır ki, XXI əsrin yeni texniki tərəqqisi olan nanotexnologiya sadə, kiçikölçülü, yüksək dəqiqliyə malik olan cihaz vasitələrinin yaradılmasında və onların geniş istifadə olunan sahələrinin, o cümlədən aqrar, biologiya, həmçinin təbabət elmlərinin intensiv inkişafında müstəsna rol oynayır. Biologiyanın yeni və elmi-praktiki cəhətdən ən səmərəli sahəsi olan molekulyar biologiya baytarlıq təbabətinin də qlobal və prioritet problemlərinin həllinin işlənib hazırlanmasında bir çox müvəffəqiyyətlərə nail olunmuşdur. Canlıların bütün həyat fəaliyyətinin gələcək nəsil törəmələrinə keçməsinin öyrənilməsi genetikanın əsas tədqiqat obyektidir. Genetika elminin molekulyar biologiyanın, təbabətin, baytarlıq təbabətinin, heyvandarlığın, tibbi biologiyanın və digər sahələrin öyrənilməsində böyük rolu vardır. Bütün növ heyvanların, quşların, arıların, balıqların və s. genetik aspektlərini baytarlıq təbabəti genetikası öyrənir. Məhz bu baxımdan da bioloji müxtəlifliyin qorunmasında molekulyar biologiyanın rolu böyükdür.

Heyvandarlıq və quşçuluq məhsullarını (ət və ət məhsulları, süd və süd məhsulları, yumurta, balıq və s.) istehlak edən insan üçün onların zərərsiz olması isə bilavasitə baytarlıq təbabəti həkimlərinin səlahiyyətindədir. Çünki xəstəliyə yoluxmuş heyvan və ev quşlarının məhsulları insanda müxtəlif infeksion və invazion xəstəliklərə, zəhərlənmələrə gətirib çıxarır. Baytarlıq təbabəti bəşəriyyəti qoruyan, insan və heyvanların sağlamlığının keşiyində duran mühüm bir elm sahəsidir. Baytarlıq təbabəti həkimləri heyvan, quş, balıq və s. müayinə və müalicə edir ki, bu da öz növbəsində biomüxtəlifliyi qorumaqda mühüm rol oynayır. Məhz bu səbəb də baytarlıq təbabəti həkimlərinin fəaliyyətinin məsuliyyətli və mürəkkəb olduğunu sübut edir.

Təhlükə altında olan vəhşi heyvanların və quşların təbii bərpası, miqrasiya edən heyvan və quş növlərinin müəyyən edilməşi, ekosistemlərin tarazlığını pozan və biomüxtəlifliyə ciddi zərər vuran heyvan növləri üzrə tədqiqatların aparılması zamanın vacib məsələlərindəndir. Heyvan növlərinə ekoloji və antropogen təsirlərin müəyyənləşdirilməsi, ailə kəndli təsərrüfatlarında müxtəlif heyvan cinslərinin saxlanması və çoxaldılması məqsədilə biomüxtəlifliyin qorunub saxlanılmasında baytarlıq təbabəti həkimlərinin rolu böyükdür.

İqlimin dəyişilməsi biomüxtəlifliyin itirilməsinin başlıca səbəblərindən biridir. Qlobal iqlim dəyişikliyi gələcəkdə yad növlərin yayılmasına, bəzi növlərin miqrasiya imkanlarının məhdudlaşdırılmasına gətirib çıxaracaq. İqlimin dəyişilmələri ərzaq, su ehtiyatlarına mənfi təsir edir. Otlaq sahələrində mal-qaranın normadan artıq istifadəsi torpaqların sıradan çıxması ilə nəticələnir. İqlim dəyişmələri kənd təsərrüfatının bütün sahələrinə, o cümlədən heyvandarlığa da mənfi təsir edir və bu səbəblər zərərverici və xəstəliklərin yayılmasına şərait yaradır. Qeyd etməliyik ki, iqlimin dəyişilməsi biomüxtəlifliyə ciddi ziyan vurur. Odur ki, biomüxtəlifliyin qorunub saxlanılmasına dair tədbirlər görülməsi zəruridir.

Bioloji müxtəlifliyə iqlim dəyişikliyi də təsir edir ki, bu da fermerlər və sahibkarlar arasında dayanıqlı kənd təsərrüfatının, heyvandarlıq və quşçuluq sahələrinin rentabelli işləməsinə təsir edir. Odur ki, fermerlər və sahibkarlar arasında maarifləndirmə işləri aparılmalı, baytarlıq nəzarəti gücləndirilməli, həmçinin bioloji müxtəlifliyin qorunması məqsədilə monitorinqlər aparılmalıdır.

Ulu Öndər Heydər Əliyev deyirdi: "Ətraf mühitə insani münasibət göstərilməsi, biomüxtəlifliyin qorunub saxlanılması bizim gələcəyimiz üçün çox vacibdir. Biz təbiətdən təcrid olunmuş şəkildə yaşaya bilmərik!"